“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV



# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ 4 (22) ✦ 30 aprel 2026-cı il




## “ŞƏHƏRSALMA VƏ MEMARLIQ” İLİ – BALAKƏNLİLƏRİN DİQQƏTİNƏ!

Cənab Prezidentin sərəncamı ilə 2026-cı il ölkəmizdə “Şəhərsalma və Memarlıq” ili elan olunub. “Yeni Balakən” qəzeti olaraq biz də bu mühüm təşəbbüsə dəstək verməyi özümüzə borc bilirik. Çünki ev tikmək, bir yuvaya sahib olmaq hər bir insanın ən böyük arzularından biridir.

Lakin çoxları bilmədən inşaata başlayır və sonradan müxtəlif çətinliklərlə üzləşir. Əslində isə ilk addım layihələndirmədir: tikiləcək evin memarlıq planı hazırlanmalı, müvafiq sənədlər Şəhərsalma və Arxitektura Komitəsinə elektron qaydada təqdim edilməlidir. Komitə 10 iş günü ərzində layihəni yoxlayır və qanunlara uyğun olduğu halda portalda qeydiyyata alır. Bu qeydiyyat tikintinin rəsmi statusunu təsdiqləyir və sizi cərimələrdən, narahatlıqlardan qoruyur.

Tikinti tamamlandıqdan sonra portalda “tamamlama” qeydiyyatı aparılır. Bununla evinizə qaz xətti çəkilir, çıxarış verilir. Qeyri-yaşayış obyektləri – mağaza, anbar, dükan – üçün də eyni qay-dalar keçərlidir. Əks halda, cərimələr ard-arda artır: əvvəl 300 manat, sonra 500, daha sonra minlərlə manat... Halbuki, qanuna uyğun sənədləşmə ilə bütün bu problemlərin qarşısını almaq mümkündür.

Biz “Yeni Balakən” olaraq oxucularımıza həm məlumatlandırma, həm də sənədlərin sistemə yerləşdirilməsi sahəsində dəstək göstəririk. İstər fərdi yaşayış evi, istər yardımçı tikili, istərsə də ticarət obyekti olsun – rayonumuzda fəaliyyət göstərən gənc və savadlı memarlar, peşəkar layihə və dizayn şirkətləri ilə sizi əlaqələndirə bilərik. Üstəlik, sərfəli qiymətlərlə və tam rəsmi qaydada.

Nəticə olaraq, “Şəhərsalma və Memarlıq” ili hər birimiz üçün yalnız dövlət proqramı deyil, həm də öz həyatımızı daha rahat, qanunlara uyğun qurmaq fürsətidir. Ev tikmək, obyekt inşa etmək – bunlar sadəcə daşdan, taxtadan ibarət deyil, həm də gələcəyimizin təminatıdır. Qanunlara riayət etməklə, düzgün layihələndirmə və rəsmi qeydiyyatla hər bir tikinti həm sahibinə rahatlıq, həm də cəmiyyətə gözəllik bəxş edir.

Balakənlilər olaraq biz də bu prosesdə həm dövlətimizin çağırışına cavab verməli, həm də öz yuvamızı, iş yerimizi qanuni və möhkəm əsaslarla qurmalıyıq. Çünki hər bir sağlam tikili – sağlam gələcəyin təməlidir.

Balakən – gözəl memarlığın və düzgün şəhərsalmanın nümunəsi olsun.

YENİ BALAKƏN

## Şəhidlərin xatirəsinə həsr olunmuş voleybol turniri – Balakəndə gənclərin vətənpərvərlik ruhu







Balakən rayonunda şəhidlərin xatirəsinə həsr olunmuş voleybol turnirinin qaliblərinin mükafatlandırma mərasimi keçirilib. 24–25 aprel tarixlərində baş tutan tədbir həm idman bayramı, həm də şəhidlərimizin əziz xatirəsinə ehtiram nümunəsi kimi yadda qalıb.

Mərasim iştirakçıları əvvəlcə Rayon Şəhidlər xiyabanında şəhidlərin məzarlarını ziyarət edib, abidə önünə tər qərənfillər düzüb, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarını ehtiramla yad ediblər. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, Dövlət Himni səsləndirilib.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev çıxışında 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun qazandığı tarixi qələbədən söz açaraq, şəhidlərimizin xatirəsinə həsr olunan turnirlərin davamlı təşkil ediləcəyini vurğulayıb. Şəhid valideynləri Validə Əlisoltanova və Aynur Bayramova, rayon Ağsaqqallar Şurasının sədri Xəlifə Mirəliyev, I Qarabağ müharibəsi qazisi, hərbi jurnalist Şaban Dağdəmirov da çıxışlarında bu cür tədbirlərin şəhidlərimizin tanıdılması və gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd ediblər.

Turnirin nəticələrinə görə, III yerə FHN Dövlət Yanğından Mühafizə Xidmətinin Balakən rayon hissəsi, II yerə Qazma bələdiyyəsi, I yerə isə Xalatala bələdiyyəsinin komandası layiq görülüb. Qaliblərə Gənclər və İdman Nazirliyi Şəki-Zaqatala Regional Gənclər İdarəsinin diplom və medalları, I yerin sahibinə kubok və “Harmony Design Group” şirkətinin qiymətli hədiyyələri təqdim olunub.

Mərasim xatirə şəkillərinin çəkilməsi ilə yekunlaşıb.

Qeyd edək ki, Balakən Rayon İcra Hakimiyyəti, gənclər və idman sektorları və Olimpiya İdman Kompleksinin birgə təşkilatçılığı ilə keçirilən turnirdə 20 komanda və 150-dən çox idmançı iştirak edib. Yarışın əsas məqsədi şəhidlərimizin xatirəsini əbədiləşdirmək, gənclərdə vətənpərvərlik hissini gücləndirmək, sağlam həyat tərzini təşviq etmək və asudə vaxtın səmərəli təşkilinə töhfə vermək olub.

YENİ BALAKƏN









# Balakən Rayon İcra Hakimiyyətində Vətəndaş Qəbulu

Balakən Rayon İcra Hakimiyyətinin inzibati binasında vətəndaşların növbəti qəbulu təşkil olunub. Qəbulda rayon icra hakimiyyətinin başçısı, Aparatın şöbə müdirləri, aidiyyəti idarə, müəssisə və təşkilatların nümayəndələri iştirak ediblər.

Qəbul zamanı vətəndaşların müraciətləri dinlənilib, onların qaldırdıqları məsələlərlə bağlı qanunvericiliyin tələbləri izah olunub. Rayon icra hakimiyyətinin səlahiyyətləri daxilində olan problemlərin həlli üçün yerində tapşırıqlar verilib. Digər mövzularla bağlı isə aidiyyəti dövlət qurumlarının yerli nümayəndələrinə tövsiyələr çatdırılıb.

Qəbulda şəhid ailələri, qazilər və müharibə iştirakçıları növbədənkənar qəbul edilərək onların müraciətlərinə xüsusi diqqət göstərilib. Bu, dövlətin müharibə iştirakçılarına və şəhid ailələrinə göstərdiyi qayğının bariz nümunəsi kimi dəyərləndirilib.

Belə görüşlər vətəndaşların problemlərinin birbaşa dinlənilməsi, onların operativ həllinə şərait yaradılması və dövlət-vətəndaş münasibətlərinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

**YENİ BALAKƏN**

# Balakəndə şair Ramazan Xutra ilə görüş keçirildi



28 aprel 2026-cı il tarixində Balakən Mərkəzi Kitabxanasında Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatı, tanınmış şair Ramazan Xutra ilə görüş keçirildi.

Tədbirdə Rayon İcra Hakimiyyətinin, Mədəniyyət Mərkəzinin nümayəndələri, Balakən yazarları, Zaqataladan şairin sənət dostları, rayon ziyalıları, şəhid anaları, mədəniyyət işçiləri, kitabxana əməkdaşları, qiraət ustaları və gənclər iştirak etdilər.

Görüşdə şairin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verildi, onun şeirləri və hekayələri səsləndirildi. İştirakçılar Ramazan Xutranın sənət yolunu əks etdirən videoçarxa da baxdılar. Tədbirin ən yaddaqalan məqamlarından biri isə şairin yeni çapdan çıxmış kitabının ilk dəfə oxuculara təqdim olunması oldu.

Bu görüş Balakənin ədəbi-mədəni həyatında əlamətdar hadisəyə çevrildi. Şairin yaradıcılığına göstərilən maraq, onun söz dünyasının gənclərə və oxuculara çatdırılması, həmçinin şəhid analarının və ziyalıların iştirakı tədbirə xüsusi mənəvi dəyər qatdı.

**YENİ BALAKƏN**

## ŞƏHİDLƏRİMİZİN RUHUNA EHTİRAM, AİLƏLƏRİNƏ DÖVLƏTİN QAYĞISI





# Balakəndə Şəhid Ailələrinə Ziyarət





Vətən müharibəsi yalnız torpaqlarımızın azadlığı deyil, həm də xalqımızın ruhunun ucalığı idi. Bu müharibədə şəhid olan igidlərimiz öz qanları ilə qəhrəmanlıq salnaməsi yazdılar. Onların igidliyi dost üçün fəxarət, düşmən üçün qorxu və titrətmədir. Şəhidlərimizin ruhu daim uca tutulur, ailələri isə dövlətin diqqət və qayğısı ilə əhatə olunur.

Balakən rayonunun icra başçısı Natiq Ağayev təyin olunduğu gündən şəhid ailələrinin yanında olmağı özünün ən müqəddəs borcu sayır. Onun hər bir ziyarəti dövlətin böyüklüyünü, xalqın minnətdarlığını ifadə edir. Şəhid ailələrinin evlərinə qədəm basan icra başçısı onların dərdini dinləyir, problemlərinə çarə tapır, qayğılarını bölüşür. Bu görüşlərdə onu adətən DİN Balakən Polis Şöbəsinin və DTX Balakən rayon şöbəsinin rəhbərləri müşayiət edirlər.

Şəhid ailələri bu diqqət və qayğıdan qürur duyur, ölkə rəhbəri Cənab İlham Əliyevə yerdə onun nümayəndəsi Natiq Ağayev vasitəsilə minnətdarlıqlarını bildirirlər. Natiq müəllim səmimiyyəti, insana sayğısı və diqqətcilliyi ilə dövlətin ideal simasını təcəssüm etdirir – arxa-dayaq, haqq-ədalət və son ümid.

İcra başçısının ilk ziyarəti Vətən Müharibəsi Qəhrəmanı Amin Novruzovun ailəsinə oldu. Ardınca əfsanəvi kəşfiyyatçı "Türk Harun" ləqəbli Harun Alqayevin ailəsi, daha sonra iki ayın əsgəri olaraq şəhid olmuş Murtuzov Məhəmmədin Xalatala kəndindəki ailəsi ziyarət edildi. Bu günün görüşü isə "Vur komandir, vur" kəlamı ilə bütün türk dünyasında tanınan qəhrəman tank komandiri Vahid Əlisoltanovun ailəsində baş tutdu.

Bu evlərdə şəhidlərin otaqları bir növ muzeyə çevrilib. Hər bir şəkil, hər bir əşya onların döyüş yolunun canlı şahididir. İcra başçısı bu otaqlarda şəhidlərin ruhu ilə söhbət edir, onların keçdiyi şərəfli yolu yüksək qiymətləndirir, valideynlərinə həm maddi, həm də mənəvi dəstək olur.

Balakənin bütün şəhid ailələrinin öz doğma adamı,ailə üzvi kimi bildikləri Balakən polis şöbəsinin rəisi Çingiz Aslanov da hər görüşdə şəhid ailələrinə sevinc bəxş edir. Onun gətirdiyi hədiyyələr sadəcə bir əşya deyil, bir sevinc, bir ümid, bir diqqət nişanəsidir. Bu qayğı ilə ailələr özlərini tək hiss etmir, dövlətin nəfəsini yanlarında duyurlar.

Balakəndə şəhid ailələrinin ziyarəti yeni başlayıb və mütəmadi olaraq davam edəcək. Bu görüşlər bir daha onu göstərir ki, şəhidlərimizin ruhu daim uca tutulur, onların ailələri isə dövlətin və xalqın diqqət və qayğısı ilə əhatə olunur. Şəhidlərimizin qəhrəmanlıq dastanı gələcək nəsillərə örnək olacaq, onların igidlik salnaməsi heç vaxt unudulmayacaq.

**YENİ BALAKƏN**

## AZƏRBAYCANDA MEDİASİYANIN INKIŞAFI: REGİONAL UĞURLAR VƏ İNSTİTUSİONAL YANAŞMA




# Balakəndə mediasiya mədəniyyətinin formalaşmasına mühüm töhfə

Son illərdə Azərbaycanda hüquqi mübahisələrin alternativ həlli mexanizmlərinə maraq əhəmiyyətli dərəcədə artmışdır. Bu istiqamətdə mediasiya institutu müasir hüquqi sistemin vacib elementlərindən biri kimi çıxış edir. Mediasiya tərəflər arasında yaranan mübahisələrin məhkəməyə müraciət edilmədən, qarşılıqlı razılıq və anlaşma əsasında həllinə imkan yaradır.

Ölkəmizdə mediasiyanın tətbiqi və inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu sahənin formalaşması və inkişafı İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar və qəbul edilən normativ-hüquqi aktlar nəticəsində mümkün olmuşdur. Bu addımlar mediasiyanın hüquqi əsaslarını möhkəmləndirmiş və onun geniş tətbiqinə şərait yaratmışdır.

Mediasiya sahəsində fəaliyyətin koordinasiyası və inkişafında Azərbaycan Respublikasının Mediasiya Şurası xüsusi rol oynayır. Şuranın idarə Heyətinin sədri Nadir Adılov bu sahədə sistemli islahatların həyata keçirilməsi, mediatorların peşəkarlıq səviyyəsinin artırılması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində mühüm fəaliyyət göstərir.

Regionlarda fəaliyyət göstərən mediasiya qurumları bu siyasətin real nəticələrini nümayiş etdirir. Bu baxımdan Balakən 1 saylı Mediasiya Təşkilatı xüsusi qeyd olunmalıdır. Təşkilat yerli əhali üçün mediasiya xidmətlərinin əlçatanlığını təmin edir, hüquqi maarifləndirmə tədbirləri həyata keçirir və mübahisələrin sülh yolu ilə həllinə töhfə verir.

Təşkilatda çalışan mediatorlar hər bir müraciətə fərdi yanaşaraq tərəflər arasında dialoqun qurulmasına və qarşılıqlı etimadın bərpasına nail olurlar. Xüsusilə ailə, əmək və kommersiya mübahisələrinin mediasiya yolu ilə həlli həm vaxt, həm də maliyyə baxımından daha səmərəli nəticələr verir.

Qeyd edilməlidir ki, Balakən 1 saylı Mediasiya Təşkilatının direktoru və mediatoru Nizamə İsmayılova rəhbərlik etdiyi kollektivlə birlikdə regionda mediasiya mədəniyyətinin inkişafına dair bir çox işlər görür,mühüm addımlar atır. Onun təşəbbüskarlığı və peşəkarlığı nəticəsində təşkilatın fəaliyyəti daha da genişlənməkdədir.

Nəticə etibarilə, mediasiya Azərbaycanda hüquqi sistemin ayrılmaz hissəsinə çevrilməkdədir. Dövlət dəstəyi, institusional inkişaf və peşəkar mediatorların fəaliyyəti bu sahənin gələcəkdə daha da genişlənəcəyini və cəmiyyət üçün effektiv alternativ həll mexanizmi kimi mövqeyini möhkəmləndirəcəyini göstərir.

YENI BALAKƏN

**P.S.** Vətəndaşların nəzərinə:Bir sıra məsələlərdə məhkəməyə baş vurunca əvvəl Balakən 1 saylı Mediasiya Təşkilatı ilə görüşün.Bəlkə uzun-uzadı məhkəmə proseslərinə,çəkişmələrə ehtiyacınız olmayacaq,təşkilatın köməyi sayəsində məsələ qısa yoldan,tez zamanda həllini tapa bilər.Təşkilatın iş həyatı bu cürə müsbət nəticələnən işlərlə zəngindir.iki ay sonra təşkilatın yaranmasının ildönümüdür.İldönümü ilə əlaqədar geniş yazımızda təşkilatın fəaliyyəti,gördüyü işlər barədə geniş məlumat verəcəyik.



# Balakənli müəllim Günay Sofiyevanın uğurları

Balakən rayonunun Püştətala kəndində anadan olan, uzun illərdir təhsil sahəsində çalışan Sofiyeva Günay Hacısüleyman qızı kimya-biologiya müəllimi kimi həm rayon, həm də respublika miqyasında böyük nailiyyətlər qazanıb.

2001-ci ildən Əli Şirinov adına Qaravəli kənd tam orta məktəbində pedaqoji fəaliyyətə başlayan Günay müəllim şagirdlərinə kimya fənnini sevdirərək onların ali məktəblərə yüksək ballarla qəbul olunmasına, olimpiadalarda və bilik yarışlarında uğurla iştirak etməsinə nail olub.

Onun fəaliyyəti təkcə məktəb daxilində deyil, həm də ölkə miqyasında dəyərləndirilib. Müəllim “Qabaqcıl təhsil işçisi” döş nişanı, Təhsil Nazirliyinin fəxri fərmanları, həmçinin Prezident İlham Əliyevin sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif olunub.

Günay Sofiyeva bir sıra yerli və beynəlxalq layihələrin müəllifi və koordinatoru kimi də tanınır. “İpək ilahəsi”, “Hackathon”, “Balakənli mühəndislər” və “Virtual kimya” layihələri onun təşəbbüskarlığının bariz nümunəsidir. Bu layihələr vasitəsilə şagirdlər virtual laboratoriyalarda təcrübələr apararaq fənni daha dərindən öyrənmək imkanı qazanıblar.

Elm və təhsilə bağlılığı, gənc nəslin inkişafına verdiyi töhfələr Günay müəllimi həm şagirdlərinin, həm də təhsil ictimaiyyətinin sevimlisinə çevirib. Onun fəaliyyəti Balakən rayonunun təhsil tarixində xüsusi iz qoyur.

YENI BALAKƏN

# Balakəndə Şəhid Ailələri, Əlillər və Qaçqınlar üçün Tikilmiş Binalara Baxış





Balakən şəhərinin Atatürk prospektində yerləşən şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa edilmiş 36 mənzilli, həmçinin qaçqın və məcburi köçkünlərin məskunlaşdığı 45 mənzilli binalara rayon rəhbəri Natiq Ağayev baxış keçirib. Bu baxış sadəcə rəsmi səfər deyil – sakinlərin gündəlik həyatına, onların problemlərinə birbaşa toxunan, insani ünsiyyətə əsaslanan görüş idi.

## Sakinlərin Səsi Dinlənildi

Görüş zamanı sakinlər su, kanalizasiya, zibil qutuları, sahibsiz itlər, qaz, elektrik, istilik və işsizlik kimi gündəlik problemlərini səsləndirdilər. Natiq Ağayev bir sıra məsələlərin həlli üçün yerindəcə göstəriş verdi, digərlərinin isə zamana ehtiyac olduğunu bildirdi. Bu yanaşma sakinlərdə ümid və inam yaratdı.

Sakinlər rayon rəhbərinin səmimiyyətini, insani davranışını yüksək qiymətləndirdilər. Onların sözlərinə görə, bu cür ünsiyyət dövlətə olan sevgini gücləndirir, inamı möhkəmləndirir. Bina sakini Vüsalə xanım isə cənab Prezidentə minnətdarlığını dilə gətirərək dedi:

“Sağ olsun cənab Prezident, evsiz, körpə övladımla küçədə qalmışdım. Dövlət başçısı mənə ev, isti yuva verdi.”

Bu sözlər bir anlıq görüşün deyil, illərlə çəkilən çətinliklərin arxasında dayanan böyük bir sevincin ifadəsi idi.

## İdarəetmədə insani Yanaşma

Natiq Ağayevin idarəetmə təcrübəsi, geniş təfəkkürü və dövlətçilik tərbiyəsindən gələn davranış tərzi sakinlər tərəfindən xüsusi vurğulandı. Onun tam heyətlə gəlməsi, hər bir sakinin sözünü dinləməsi, problemlərə diqqətlə yanaşması insanların gözündə rəhbərin sadəcə məmur deyil, həm də bir ailə üzvü kimi görünməsinə səbəb oldu.

## Sakinlərin Razılığı

Sakinlər görüşün sonunda Natiq müəllimə təşəkkürlərini bildirərək, göstərilən diqqət və qayğıdan razı qaldıqlarını vurğuladılar. Onların sözlərinə görə, bu cür görüşlər təkcə problemlərin həlli üçün deyil, həm də dövlət-vətəndaş münasibətlərinin möhkəmlənməsi üçün mühüm addımdır.

Bu görüşün bəxş etdiyi xoş təəssüratlardan biri də odur ki, dövlətin gücü yalnız qurulan binalarda, çəkilən yollarda deyil, vətəndaşın qəlbindədir. Şəhid ailələri, müharibə əlilləri, qaçqın və məcburi köçkünlər üçün yaradılan şərait onların həyatına rahatlıq gətirməklə yanaşı, dövlət-vətəndaş birliyini daha da möhkəmləndirir. Sakinlərin minnətdarlığı isə göstərir ki, bu birlik gələcəyə olan ümidlərin ən güclü təminatıdır.

Ramazan Abal

# Ağsaqqalların Dəyərli Görüşü – Qaysa kəndində

Respublika Ağsaqqallar Şurasının IX Qurultayından qayıdan Balakən rayon Ağsaqqallar Şurasının sədri Xəlifə Mirəliyev bir neçə gün əvvəl şəhərdəki qərargahda idarə heyəti ilə iclas keçirərək qurultayın tövsiyələrini bölüşmüş, qarşıda duran vəzifələri müzakirə etmişdi. Bu gün isə iş planına uyğun olaraq nəzərdə tutulan görüşlərdən biri Qaysa kəndində baş tutdu.

Rayon Ağsaqqallar Şurasının sədri Xəlifə Mirəliyev, idarə heyətinin üzvləri Maqsud müəllim, Rəşid müəllim və Meysarat xanım uzun illər təhsil sahəsində xidmət göstərmiş, 42 il Qaysa kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmiş, böyük şair Səməd Vurğunun əmizadəsi olan 1936-cı il təvəllüdlü Vəkilova Fəridə Cəlal qızını evində ziyarət etdilər.



90 yaşlı ağbirçək Fəridə müəllimə bu diqqətdən məmnunluğunu bildirərək, şanlı nəslinin sürgünlərə və güllələnmələrə məruz qalan nümayəndələrindən, öz həyat yolunun acı və şirin xatirələrindən səlis və dəqiq danışaraq dinləyənləri sanki tarixi ekskursiyaya apardı. Sözünün sonunda isə gənclərə çox önəmli bir tövsiyə verdi: **ailə bağlarını qorumaq, ailə dəyərlərinə sahib çıxmaq**. Onun fikrincə, insanın ən əziz sərvəti ailədir və bu kiçik dövləti qorumaq hər kəsin borcudur.

Xəlifə Mirəliyev görüşdə çıxış edərək cənab Prezidentin hər bir Azərbaycan vətəndaşına göstərdiyi diqqət və qayğıdan danışdı. O, dövlət başçısının Qurultaya ünvanladığı təbrik məktubunda ağsaqqallara və ağbirçəklərə verdiyi dəyəri, xoş sözləri görüş iştirakçılarının diqqətinə çatdırdı.

Fəridə xanımın maraqlı həyat yolu və zəngin xatirələri gələcəkdə onun şagirdlərinin qələmindən daha geniş təqdim olunacaq. Rayon Ağsaqqallar Şurasının bu görüşü önəmli bir dəyərə vurğudur ki, ağsaqqallar və ağbirçəklər cəmiyyətin mənəvi dayağı, gənclərin isə ən böyük örnəyidir.

Ramazan Abal



# Balakəndə şahmat həvəskarlar arasında rayon turniri keçirildi

25 aprel 2026-cı il tarixində Balakən rayonunun Hənifə kənd bələdiyyəsində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş şahmat üzrə həvəskarlar arasında rayon turniri baş tutdu.

Turnir Balakən Rayon İcra Hakimiyyəti, Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin Balakən sektoru, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Balakən sektoru, Balakən rayon Uşaq-Gənclər İdman Şahmat Məktəbi və Hənifə kənd bələdiyyəsinin birgə təşkilatçılığı ilə keçirildi.

Açılış mərasimində Balakən Rayon İcra Hakimiyyətinin Başçısı cənab Natiq Ağayev çıxış edərək Heydər Əliyevin Azərbaycan xalqının tarixində silinməz iz qoymuş böyük şəxsiyyət olduğunu vurğuladı. O, gənclərin intellektual inkişafına, sağlam rəqabətə və dostluq münasibətlərinə töhfə verən bu kimi yarışların əhəmiyyətini qeyd edərək iştirakçılara uğurlar arzuladı.

Turnirdə müxtəlif yaş qruplarından onlarla şahmatçı iştirak etdi və 4 nominasiya üzrə qaliblər müəyyənləşdi:

**Balacalar arasında**
Dibirov Elturan
Dibirov Canpolad
Əlibəşiyeva Aynur

**Gənclər arasında**
Mehdiyev Şəmsəddin
Dibirov Şamil
Qaysayev Rəşad

**Böyüklər arasında**
Alqayev Rəhman
Musalimov Telman
Musazadə Təbriz

**Gənc qızlar arasında**
Mehdiyeva Fidan
Qunduzova Səma
Alqayeva Səbinə



Qaliblər Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin Balakən sektoru tərəfindən diplomlarla, Hənifə kənd bələdiyyəsi tərəfindən isə mükafatlarla təltif olundular.

Bu turniri Balakəndə şahmatın inkişafına, gənclərin intellektual bacarıqlarının artırılmasına və milli-mənəvi dəyərlərin təbliğinə mühüm töhfə kimi dəyərləndirmək olar.

Şahmat fiqurları taxtadan yığışdırılsa da, bu günün xatirəsi yaddaşlardan silinməyəcək. Çünki Balakən gəncləri onu da göstərdilər ki, zəka ilə qurulan hər bir gediş yalnız oyunda deyil, həyatda da qalibiyyət gətirir. Və bəlkə də bu turnirin ən böyük qələbəsi taxtada deyil, gənclərin ürəyində doğulan yeni ümidlərdə idi.

**YENİ BALAKƏN**

# Çay yatağına qanunsuz müdaxilənin qarşısı alınmışdır

Balakən rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən profilaktiki nəzarət tədbirləri zamanı yerin təkindən istifadə qaydalarının pozulması hallarının qarşısının alınması məqsədi ilə reydlər keçirilmiş, aparılmış yoxlamalar zamanı 29.04.2026-cı il tarixdə gecə saat 01 radələrində, "Balakən çayı"nın rayonun Hənifə kəndi ərazisindən keçən hissəsindən çay qumunu daşıyaraq inzibati xəta törətmiş aşağıda adları qeyd olunan:

1. 22.03.1981-ci il təvəllüdlü Balakən rayonu Qullar kənd sakini Saramanov Aydın Nasrullah oğlu,
2. 04.01.1974-cü il təvəllüdlü Balakən rayonu Hənifə kənd sakini Babayev İlham İsrafil oğlu aşkar olunmuşdur.

Onların hər birinin barələrində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 243.0.1-ci (yerin təkindən istifadə qaydalarının pozulması) maddəsi ilə inzibati xəta haqqında protokollar tərtib olunaraq baxılması üçün aidiyyəti üzrə 7 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinə göndərilmişdir.

**YENİ BALAKƏN**




# 01.01.2026-cı il vəziyyətinə Balakən rayonunun demoqrafik göstəriciləri

*Rayon əhalisinin sayı ötən ilin əvvəlindən 264 nəfər və ya 0,3 faiz artaraq 2026-cı il yanvar ayının 1-i vəziyyətinə 101283 nəfərə çatmışdır. Əhalinin 15852 nəfərini və ya 15,7 faizini şəhər, 85431 nəfərini və ya 84,3 faizini kənd sakinləri, 49800 nəfərini və ya 49,2 faizini kişilər, 51483 nəfərini və ya 50,8 faizini isə qadınlar təşkil edir.*

### *Əhalinin təbii hərəkətinin əsas göstəriciləri*

| | Nəfər | | | Əhalinin hər 1000 nəferinə | | |
|---|---|---|---|---|---|---|
| | 2025-ci ildə | 2024-cü ildə | artım (+) azalma (-) | 2025-ci ildə | 2024-cü ildə | 2025-ci il 2024-cü ilə nisbətən, faizlə |
| Təbii artım | 262 | 312 | -50 | 2,6 | 3,1 | 83,9 |
| Doğulanlar | 833 | 898 | -65 | 8,2 | 8,9 | 92,1 |
| Ölənlər | 571 | 586 | -15 | 5,6 | 5,8 | 96,6 |
| Nikahlar | 446 | 435 | +11 | 4,4 | 4,3 | 102,3 |
| Boşanmalar | 157 | 146 | +11 | 1,6 | 1,4 | 114,3 |




2025-ci il ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən rayonda 833 doğulan körpə qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 8,9-dan 8,2-yə düşmüşdür. Doğulan körpələrin 465 nəfəri və ya 55,8 faizi oğlan uşaqları, 368 nəfəri və ya 44,2 faizi isə qız uşaqları olmuşdur.

2025-ci il ərzində rayonda 571 ölüm halı qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 5,8-dən 5,6-ya düşmüşdür.

2025-ci il ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən rayonda 446 nikah və 157 boşanma halları qeydə alınmışdır. 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 4,3-dən 4,4-dək və boşanmaların sayı 1,4-dan 1,6-dək artmışdır.

2025-ci il ərzində Daxili İşlər Nazirliyinin və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən qeydə alınmış rayona daimi yaşamaq üçün gələn və rayondan gedənlərin miqrasiya saldosu müsbət 2 nəfər təşkil etmişdir.

*Əsəbəli ALQAYEV*
*Balakən Rayon Statistika İdarəsinin rəisi*

## İTMİŞDİR

**Qazma kənd sakini Şindiyeva Zetey Nurullah qızının adına verilmiş 008369 nömrəli Şəhid Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**MƏSUL REDAKTOR:**
**Ramazan ABALOV**

Ünvanımız: Balakən şəhər. H.Əliyev pr.40
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

**HESAB NÖMRƏMİZ:**
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100